*Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 iyun 2018-ci il № 49 (2265) Qiyməti 25 qəpik


1918 Azərbaycan Ordusu - 100 2018

# Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilib

## Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olub






*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva paradda olublar.*

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləyiblər.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib.

Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub.

Paradda, həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

Azadlıq meydanına toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi sürəkli alqışlarla qarşıladılar.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak edən şəxsi heyəti salamladı.

Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestri Azərbaycan Respublikasının Dövlət himnini ifa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi paradda nitq söylədi.

**(Ardı 2-ci səhifədə)**

1918 Azərbaycan Ordusu - 100 2018

# Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilib

## Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olub

(Əvvəli 1-ci səhifədə)

- Əziz əsgərlər, zabitlər, generallar.

Əziz hərbçilər.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Ordusunun 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətinə yeni uğurlar, yeni nailiyyətlər arzulayıram.

Keçən ay biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etmişik. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş ən önəmli qərarlardan biri Azərbaycan Ordusunun yaradılması ilə bağlı qərar idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki ildən sonra respublika süqut etdi və Azərbaycan dövlət müstəqilliyini itirdi. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir.



Azərbaycanın dövlət müstəqilliyi 1991-ci ildə bərpa edilmişdir. Ancaq bildiyimiz kimi, müstəqilliyimizin ilk iki ili ölkəmiz üçün çox ağır keçmişdir, faciəvi illər idi. Sanki tarix XX əsrin sonunda təkrarlanırdı. 1991-1993-cü illərdə Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı. Ölkə idarəolunmaz vəziyyətdə idi. Müstəqilliyimiz formal, şərti xarakter daşıyırdı. Azərbaycan müstəqil siyasət apara bilmirdi. Ölkə daxilində çəkişmələr, hakimiyyət uğrunda mübarizə vəziyyəti daha da ağırlaşdırırdı. İqtisadi tənəzzül, böhran hökm sürürdü. 1992-ci ildə Xalq Cəbhəsi və Müsavat tərəfindən dövlət çevrilişi vəziyyəti daha da ağırlaşdırdı. Azərbaycanda vəziyyət kritik həddə çatmışdı. Bundan istifadə edən Ermənistan xalqımıza, gənc dövlətimizə qarşı işğalçılıq siyasəti aparırdı. Bu siyasət nəticəsində torpaqlarımızın bir hissəsi işğal altına düşmüşdür. Demək olar ki, müstəqilliyimizin ilk iki ili Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşamasını sual altına qoymuşdu. Belə bir ağır vəziyyətdə Azərbaycan xalqı həmişə olduğu kimi, müdriklik göstərdi, ulu öndər Heydər Əliyevə müraciət etdi, onu hakimiyyətə dəvət etdi. Ancaq bundan sonra, ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət sabitləşdi və Azərbaycan bu ağır vəziyyətdən çıxa bildi.

Müstəqilliyimizin ilk illərində nizami ordu yaradılmamışdı. Ayrı-ayrı silahlı birləşmələr Azərbaycanın ərazi bütövlüyünü qoruya bilməmişlər. Ona görə, Ulu Öndər tərəfindən qəbul edilmiş bir çox önəmli qərarlar arasında nizami ordunun yaradılması qərarı xüsusi yer tutur. Nizami ordunu yaratmaq üçün iqtisadi imkanlar olmalı idi. Məhz buna görə, o illərdə Azərbaycanda çox ciddi iqtisadi islahatlar aparılmışdır, xarici sərmayənin cəlb olunması təmin edilmişdir, Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir. Ölkədə aparılan siyasi, iqtisadi islahatlar vəziyyəti sabitləşdirdi və Azərbaycan 1993-cü ildən sonra inkişaf və tərəqqi yolu ilə gedir. Bu siyasət bu gün də davam etdirilir. 1993-2003-cü illər sabitlik və inkişaf illəri kimi tariximizdə qalmışdır.

2003-cü ildən başlayaraq bütün istiqamətlər üzrə işlər sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində. Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir.

Qeyd etdiyim kimi, Ermənistan müstəqilliyimizin ilk illərində ölkəmizdə gedən mənfi proseslərdən, o cümlədən Xalq Cəbhəsi-Müsavat tərəfindən başlanmış vətəndaş müharibəsindən istifadə edərək torpaqlarımızı zəbt etmişdir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamış, yaratmışdır. Beynəlxalq hüquqa görə də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Son illər ərzində dünyanın aparıcı beynəlxalq təşkilatları münaqişə ilə bağlı bir çox qərar və qətnamələr qəbul etmişlər. O cümlədən BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir və orada da göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr hələ də qüvvədədir və öz qüvvəsini itirməyib.

Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır, Xocalı soyqırımı törədilmişdir. Aralarında uşaqlar, qadınlar, qocalar da olan 600-dən çox günahsız insan erməni cəlladları tərəfindən qətlə yetirilmişdir. Mindən çox insan itkin düşmüşdür. Bu gün dünyanın 10-dan çox ölkəsi Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyıb.

Azərbaycan işğalla heç vaxt barışmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək. Bunun üçün güclü ordu yaratmalı idik. Bu gün tam əminliklə deyə bilərəm ki, buna nail ola bilmişik. Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifəmizdir. Güclü ordunu yaratmaq üçün güclü iqtisadiyyatımız olmalıdır. Biz bu istiqamətdə çox fəal işləmişik. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır. İqtisadi potensialına görə Azərbaycan bu gün özünü çox rahat hiss edir. Bütün aparıcı beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan ən qabaqcıl yerlərdədir. İnkişafda olan ölkələrin arasında Azərbaycan inkişafına görə dünya miqyasında üçüncü yerdədir. Biz öz hesabımıza yaşayırıq, heç bir yerdən yardım almırıq. Buna ehtiyac da yoxdur. Öz zəhmətimizlə qazanılan vəsaiti ölkə qarşısında duran əsas məqsədlərin həllinə yönəldirik. Onların arasında ordu quruculuğu birinci yerdədir.

2003-cü ildən bu günə qədər bizim hərbi xərclərimiz 15 dəfə artmışdır. Hərbçilərin xidmət şəraiti yaxşılaşır. Son illər ərzində onlarla hərbi şəhərcik yaradılmışdır. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Hərbi hissələrimizin, hərbi şəhərciklərimizin 80 faizi son bir neçə il ərzində yenidən tikilib və ya əsaslı təmir edilib. Növbəti 2-3 il ərzində bizim bütün şəhərciklərimiz tam təmirli olacaq. Beləliklə, bu məsələ də öz həllini tapmış olacaq. Hərbçilərin mənzil-məişət məsələləri həll olunur. Qəbul edilmiş qərar əsasında 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir. Bu gün bizim hərbi hissələrimizdə 20 mindən çox mülki vətəndaş çalışır. Əvvəllər bu işlərdə əsgərlər işləyirdilər. Biz əsgərləri məişət işlərindən azad etdik. Eyni zamanda, mülki vətəndaşlar üçün 20 mindən çox iş yeri yaradılmışdır.



Ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilmişdir. O cümlədən Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Bizim təşəbbüsümüzlə son illər ərzində 20-dən çox hərbi zavod yaradılmışdır. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda, biz artıq hərbi məhsullarımızı ixrac etməyə də başlamışıq. Həmçinin Azərbaycan bir çox ölkələrdən ən müasir silah və texnika alır. Bu gün bu silahların kiçik bir hissəsi paradda nümayiş etdiriləcək.

Son illər ərzində ən müasir texnika və silahlar alınıbdır. Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri - bütün bunlar bizim hərbi gücümüzü artırır. Deyə bilərəm ki, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir.

Biz bütün bunları ona görə edirik ki, Azərbaycan Ordusu daha da güclü olsun. Ona görə edirik ki, hərbi potensialımız güclənsin. Ona görə edirik ki, görürük və dünyada gedən proseslər də onu göstərir ki, beynəlxalq hüquq işləmir. Əgər işləsəydi, Azərbaycan torpaqları çoxdan işğalçılardan azad olunardı. Beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələr icra edilmir, onların icra mexanizmi yoxdur. Güc amili dünyanın müxtəlif bölgələrində əsas amil kimi çıxış edir. Belə olan halda, əlbəttə ki, bizim apardığımız siyasət düzgün siyasətdir. Bu siyasəti biz uzun illərdir ki, aparırıq. Bu hərbi potensialı biz bir ilə əldə etməmişik. Bir neçə il ərzində ardıcıl siyasət nəticəsində, o cümlədən dost ölkələrlə səmərəli əlaqələr sayəsində biz dünyanın ən müasir silahlarını əldə etmişik və bu proses davam etdiriləcəkdir. Bundan sonra da Azərbaycan ən müasir silah və texnikanı alacaq. Buna nail olmaq üçün bizim dost ölkələrlə çox səmərəli əlaqələrimiz var. Bizim böyük maliyyə resurslarımız və güclü iradəmiz var.

(Ardı 3-cü səhifədə)

1918 **Azərbaycan Ordusu - 100** 2018

# Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilib

## Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olub

**(Əvvəli 2-ci səhifədə)**



Ordumuzun döyüş qabiliyyəti artır. Mən dəfələrlə hərbi hissələrdə vəziyyətlə tanış olarkən qeyd edirdim ki, Azərbaycanda çox yüksək vətənpərvərlik ruhu var. Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir və bunu yaxın tarix göstərir. İki il bundan əvvəl Ermənistan xalqımıza qarşı növbəti hərbi təxribat törətmişdir, bizim mövqelərimizi atəşə tutmuşdur, mülki əhaliyə qarşı təcavüz etmişdir. Həm hərbçilərimiz, həm mülki vətəndaşlar şəhid olmuşdur. Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. Ermənilərin torpaqlarımızda, işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir. Lələtəpədə bizim bayrağımız dalğalanır. Ağdərə dağlarında bizim bayrağımız dalğalanır. Biz strateji yüksəklikləri əldə etmişik və bu, bizə çox böyük üstünlük verir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı - Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir. Bir daha göstərmişdir ki, Azərbaycan xalqı bu işğalla barışmayacaq. Bir daha göstərmişdir ki, Ermənistan tərəfindən onların ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mif idi. Biz bu mifi darmadağın etdik. Biz onların illər boyu yaratdıqları dırnaqarası möhkəm müdafiə xəttini bir neçə gün ərzində yardıq, məhv etdik. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir.



Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı bu bayram ərəfəsində - keçən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Biz strateji yüksəklikləri zəbt etdik. Biz indi strateji kommunikasiya yollarını nəzarət altında saxlayırıq. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur. Bir daha onu göstərdi ki, biz istənilən vəzifəni icra edə bilərik və icra edirik, böyük məharətlə və peşəkarlıqla. Bundan sonra Azərbaycan Ordusu hər an hazır olmalıdır ki, öz ərazi bütövlüyünü bərpa etsin. Biz istəyirik ki, münaqişə sülh yolu ilə həll olunsun və Azərbaycanın apardığı siyasət bunun əyani sübutudur. Ancaq bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Biz çox güclü ordu yaratmışıq. Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin. Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər. Bizim bu gün nümayiş etdirəcəyimiz silahlar həm Azərbaycan xalqına, həm düşmənə, həm də bütün dünyaya bunu göstərəcək. Ona görə, hesab edirəm ki, məsələnin tezliklə danışıqlar yolu ilə ədalətli həlli, Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi qarşı tərəfin də marağında olmalıdır.

Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilmir və bilməyəcək. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir. Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır.

2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq.

Eşq olsun Azərbaycan Ordusuna!

Yaşasın Azərbaycan!

* * *

Sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi başladı.

Meydana əvvəlcə Azərbaycan Respublikasının Dövlət bayrağı gətirildi.

100 il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli dövlət bayrağımız 72 ildən sonra ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə yenidən qaldırılıb. Xalqımız və Silahlı Qüvvələrimizin şəxsi heyəti bu bayraq altında yeni-yeni zəfərlərə doğru inamla irəliləməkdədir.



Dövlət bayrağının ardınca quruda, dənizdə və havada müqəddəs Vətənin keşiyini çəkən Silahlı Qüvvələrin qoşun növlərinin döyüş bayraqlarını aparan hərbçilər addımlayırdılar. 2016-cı ilin aprelində Füzuli, Cəbrayıl və Tərtər rayonlarının ərazilərinin bir hissəsinin işğaldan azad edilməsində xüsusi xidmətləri olan hərbi hissələrin və bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında bir çox strateji yüksəklikləri azad edərək 11 min hektar ərazinin nəzarətə götürülməsində fərqlənən Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissələrinin döyüş bayraqları tribuna önündən aparıldı.

Ulu öndər Heydər Əliyevin 1971-ci ildə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarından ibarət parad heyəti tribunaya yaxınlaşdı. Xalqımızın haqlı olaraq Heydər Əliyev Məktəbi adlandırdığı bu xüsusi təyinatlı təhsil ocağının Azərbaycan Ordusunun yaranmasında və formalaşmasında müstəsna rolu var.

Azərbaycan Ordusunun zabitlərindən ibarət parad heyətləri də mətin addımlarla tribunanın önündən keçdi. Ulu öndərimiz Heydər Əliyev vaxtilə demişdir: "Vətəni, torpağı, dövləti qorumaq peşəsi hər bir peşədən üstündür, şərəflidir!". Zabitlərimiz xalqımızın və ordumuzun gələcəyinin təminatıdır.

Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələrinin flaqmanı olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti tribunanın önündən keçdi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müxtəlif ixtisaslar üzrə peşəkar zabitlər hazırlanır. Onlar hərbi xidmətin çətinliklərinin öhdəsindən layiqincə gələrək respublikamızın müstəqilliyi və ərazi bütövlüyünün qorunması uğrunda hər bir əmrə hazırdırlar. Məktəbin 15 məzunu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə Qoşunları, Hərbi Dəniz Qüvvələri fakültələrində aviasiyanın döyüş idarəetməsi, eləcə də dənizçi ixtisasları üzrə peşəkar zabitlər, təyyarəçilər, şturmanlar, mexaniklər, silahlanmanın müxtəlif sistemləri üzrə mütəxəssislər, aviasiya xidmətləri, radiotexniki vasitələr üzrə mühəndislər hazırlanır.

**(Ardı 4-cü səhifədə)**

1918 Azərbaycan Ordusu - 100 2018

# Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilib

## Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olub

(Əvvəli 3-cü səhifədə)

İlk dəfə bu paradda qardaş Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin parad heyəti də iştirak etdi. 1918-ci il sentyabrın 15-də türk-Azərbaycan birləşmiş qoşunlarının cəmləşdiyi Qafqaz İslam Ordusu bu möhtəşəm hərbi paradın keçirildiyi Bakını daşnak-bolşevik qüvvələrindən təmizləyərək Azərbaycan dövlətinin paytaxtını azad etdi. Türk ordusunun parad heyətinin bu tədbirdə iştirakı da 100 il əvvəl olduğu kimi, sarsılmaz dostluğun və qardaşlığın növbəti göstəricisi oldu.

Sülhməramlı, Əməliyyat İmkanları Konsepsiyası və Əməliyyat Ehtiyatları taborlarını təmsil edən hərbi qulluqçular da mətin addımlarla tribuna önündən keçdilər. Sülhməramlı taborumuz sülhməramlı əməliyyatlarda fəal iştirak edir, beynəlxalq sülhün və sabitliyin bərqərar olunmasına ölkəmizin töhfəsini verir. Azərbaycan sülhməramlıları hazırda NATO-nun "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyası çərçivəsində Əfqanıstanda vəzifələrini şərəflə yerinə yetirirlər.

Doğma Azərbaycanımızın qorxmaz, igid övladları - Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin hərbi qulluqçuları, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçuları tribuna önündən keçərək Vətənə, xalqa, dövlətə, Ali Baş Komandana və Heydər Əliyev ideyalarına öz sədaqətlərini bir daha bildirdilər.

Müasir silah, xüsusi avadanlıq və texnika ilə təchiz edilmiş Xüsusi Təyinatlılar ən ekstremal şəraitdə belə düşmən dərinliyində mühüm əhəmiyyətli obyektləri ələ keçirmək, qarşıya qoyulmuş digər müxtəlif dərəcəli tapşırıqları uğurla yerinə yetirmək imkanına malikdirlər. Şəxsi heyətin tribuna önündən keçməsi ilə eyni vaxtda paraplanlarda uçuş fəaliyyətləri nümayiş etdirilərək havada xüsusi tapşırıqlar yerinə yetirildi.

Dəniz piyadaları və döyüş dalğıcları dövlət dəniz hüdudlarının müdafiəsi üzrə dənizdə və su altında bütün tapşırıqları yerinə yetirməyə hər an hazırdırlar. Onlar vətəndaşın, cəmiyyətin və dövlətin mənafeyinin qorunması, ictimai asayişin mühafizəsi, həmçinin mühüm dövlət obyektlərinin mühafizəsi üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Dövlət Təhlükəsizliyi Xidməti xalqımızın mənafeyini və dövlətimizin təhlükəsizliyini bu gün qətiyyətlə qoruyur. Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti fövqəladə halların fəsadlarının aradan qaldırılması, xilasetmə və humanitar əməliyyatların həyata keçirilməsi üzrə öz vəzifələrini nəinki ölkə daxilində, habelə xarici dövlətlərdə də şərəflə yerinə yetirir. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları Vətənimizin hüdudlarını etibarlı şəkildə mühafizə edirlər. Xüsusi Dövlət Mühafizə Xidməti ölkə rəhbərliyinin, respublikamıza gələn xarici ölkələrin rəsmi nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi, həmçinin mühüm dövlət obyektlərinin, o cümlədən neft-qaz infrastrukturunun mühafizəsinin təşkili və təmin edilməsi üzrə vəzifələrinin öhdəsindən layiqincə gəlir.



Azərbaycan Ordusu yenilməzdir, güclüdür. Azərbaycan əsgəri vətənpərvərdir, mübarizdir, qorxmazdır, cəsarətlidir, yüksək hazırlıqlıdır. Azərbaycan əsgəri Vətəninə, xalqına, dövlətinə, Ali Baş Komandanına həmişə sadiqdir. Zaman bu deyilənlərin nə qədər həqiqət olduğunu tarixdə dəfələrlə sınaqdan çıxarıb. Vətənpərvərlik ruhu ilə silahlanmış Azərbaycan əsgərinin qarşısında ən müasir silahlara sarılmış düşmən belə tab gətirə bilməz. Azərbaycan əsgəri bu keyfiyyətlərini 2016-cı ilin aprel döyüşlərində, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının Şərur rayonu istiqamətində də bir daha təsdiq etdi. Bu gün Azərbaycan bayrağı Talış zirvəsində, Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərində əzəmətlə dalğalanır. Strateji əhəmiyyət daşıyan bu yüksəkliklərin geri qaytarılması sübut edir ki, Azərbaycan məhz Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında öz tarixi torpaqlarını mütləq geri qaytaracaq, respublikamızın ərazi bütövlüyü təmin ediləcək, dövlət bayrağımız Şuşada, Xankəndidə, Laçında və işğal altında olan digər torpaqlarımızda da vüqarla dalğalanacaq.

Silahlı Qüvvələrin 100 illiyinə həsr olunmuş paradı birləşmiş hərbi orkestr müşayiət etdi.

Sonra hərbi paradda Azərbaycan Ordusunun güc və qüdrətinin təqdimatı, ən müasir hərbi və xüsusi texnikaların keçidi başladı. Bu texnikalar bir daha göstərdi ki, son illərdə ordumuz əhəmiyyətli dərəcədə güclənib. Güclü iqtisadiyyata söykənən güclü ordu formulu Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilib. Ölkəmizin iqtisadi inkişaf tempi Silahlı Qüvvələrin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir.

Çoxtəyinatlı zirehli avtomobillər tribuna önündən keçdi. Bu avtomobillər kəşfiyyat, komanda-qərargah, müxtəlif silah növləri ilə təchiz edilmiş xüsusi çevik qüvvələrin xidmətində olmaqla bir neçə konfiqurasiyada mövcuddur.

Zirehli avtomobillər üzərində quraşdırılmış "SPAYK-LR", silahlanmaya yeni qəbul edilmiş daha güclü "SPAYK-ER" tank əleyhinə idarə olunan raket kompleksləri paradı izləyənlərin böyük marağına səbəb oldu. 2016-cı ilin aprel döyüşləri zamanı bu silah vasitəsilə 30-dan artıq düşmən tankı və digər zirehli döyüş texnikası məhv edilib.

Üzərində pilotsuz uçuş aparatları əleyhinə qurğu yerləşdirilmiş zirehli avtomobillər, mina əleyhinə yüksək müdafiə sistemi ilə təchiz olunmuş "MARAL-1" və "MARAL-2" zirehli avtomobilləri tribunaya yaxınlaşdı. Bu hərbi texnikalar Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin zavodlarında istehsal olunur.

Ağır hərbi texnika istehsalında yenilik hesab edilən zirehli transportyor "BTR-82A"-nın xüsusiyyətləri onu bütün növ qoşunlarda, həmçinin desant və kəşfiyyat bölmələrində istifadə etməyə imkan verir.

Tribuna önündən Dövlət Sərhəd Xidmətinin hərbi texnikaları keçdi. Çevik hərəkət maşınları, zirehli piyada daşıyan maşınlar, zirehli transportyorlar, mobil müşahidə sistemləri dövlət sərhədlərimizin mühafizəsi üçün təyin olunub.

Çöl şəraitində qərargah və kəşfiyyat orqanlarının fəaliyyətini təmin etmək üçün nəzərdə tutulmuş zirehli komanda-qərargah və kəşfiyyat avtomobillərində quraşdırılan və kabinədən idarə olunan "LORENS" yerüstü müşahidə stansiyası qoşunların döyüş düzülüşündə fəaliyyət göstərərək kəşfiyyat məlumatlarının əldə edilməsinə və real vaxt rejimində idarəetmə məntəqələrinə ötürülməsinə imkan yaradır.





(Ardı 5-ci səhifədə)

1918 Azərbaycan Ordusu - 100 2018

# Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilib

## Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olub



(Əvvəli 4-cü səhifədə)

"ORBİTER 1K", "ORBİTER 3B", "AEROSTAR BP" pilotsuz uçuş aparatları hava kəşfiyyatının aparılması və taktiki səviyyədə düşmənin canlı qüvvəsinin və yüngül zirehli texnikasının zərərsizləşdirilməsi, müşahidə və kəşfiyyat, artilleriya dəstəyi və xüsusi əməliyyatlarla bağlı qarşıya qoyulmuş vəzifələrin icrası üçün yüksək dəqiqliyi ilə seçilir. Uzun müddət havada qalma qabiliyyətinə malik və müasir peyk-naviqasiya sistemi ilə təchiz olunan "HERON", orta ölçülü çoxməqsədli "HERMES 900", "HERMES 450", "HAROP" pilotsuz uçuş aparatları da paradda nümayiş etdirildi. Hava məkanında patrul funksiyasını yerinə yetirərək hədəfi aşkar etdikdə "mərmi-təyyarəyə" çevrilərək yer hədəflərini yüksək dəqiqliklə məhv etmək imkanına malik "HAROP" aparatları aprel döyüşlərində düşmənə sarsıdıcı zərbələr vurub.

Zirehli-tank texnikası, özüyeriyən artilleriya qurğuları, ən müasir, modernləşdirilmiş piyadaların döyüş maşınları, dünyada ən döyüşkən tank kimi tanınan "T-90S" tankı, Hava Hücumundan Müdafiə silahları sistemləri, yüksək mobilliyi ilə seçilən "BUK-MB" zenit-raket kompleksi, "S-300 FAVORİT" çoxkanallı universal mobil zenit-raket sistemi, "İldırım" və "Qalxan" hava hücumundan müdafiə kompleksləri, yubiley ərəfəsində Azərbaycan Ordusunun silahlanmasına daxil edilmiş yüksək dəqiqliyə malik qanadlı havayer raketi, artilleriya silahları sistemləri, silahlanmaya yeni daxil olmuş avtomatik idarəetmə sistemi ilə təchiz edilmiş 152 millimetrlik özüyeriyən artilleriya qurğusu, 300 millimetrlik yaylım atəşli reaktiv sistemləri, raket silahları sistemləri, avtomatik idarəetmə sistemi ilə təchiz edilmiş 301 millimetrlik və 624 millimetrlik əməliyyat-taktiki raket kompleksləri də hərbi paradda nümayiş olundu.

Xalqımız əmin ola bilər ki, bu gün paradda nümayiş etdirilən silah sistemləri və hərbi texnikalarla Azərbaycanın hava məkanı düşmənin istifadəsində olan istənilən texnika və silah növlərindən, hava və yerüstü zərərvurma vasitələrindən etibarlı şəkildə qorunub və bundan sonra da qorunacaq.

Azərbaycan Ordusunun 100 illiyi münasibətilə təşkil olunan parada Hərbi Dəniz Qüvvələrinin gəmiləri dənizdən dəstək verdi. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz Xəzərin Azərbaycan



sektorunda dövlətimizin iqtisadi və strateji maraqlarını qorumaqla yanaşı, yüksək döyüş hazırlığı nümayiş etdirdi.

Bunun ardınca Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başladı. Hərbi Hava Qüvvələrinin uçuş nümayişini "Mi-17" tipli iki helikopter açdı. Helikopterlər Azərbaycan Respublikasının Dövlət bayrağını və xalqımızın ümummilli lideri Heydər Əliyevin portretini Azadlıq meydanı üzərində dalğalandırdı.

Paradda yüngül çoxməqsədli, yüksək manevr qabiliyyətinə malik "BELL-412", dənizdə və su hövzələri üzərində axtarış-xilasetmə tapşırıqlarının yerinə yetirilməsi, həmçinin dəniz desantının su hövzələrinə çıxarılması üçün təyin olunan "KA-32", çoxfunksiyalı hərbi-nəqliyyat təyinatlı "Mi-24 QRİFİN", şəxsi heyətin və müxtəlif yüklərin daşınması, iriölçülü yüklərin xarici asqılarda nəqli üçün təyin olunan "Mi-17-1V" döyüş-nəqliyyat, eləcə də "LAHAT", "SPAYK NLOS" tipli raketlərlə silahlanmış "Mi-17", habelə "Mİ-35" və "Mİ-24" helikopterləri müxtəlif düzülüşlərdə hərəkət edərək Azadlıq meydanının üzərindən keçdi.

Helikopterlərdən sonra Bakı səmasına döyüş təyyarələri və qırıcılar daxil oldu, milli şahinlərimiz paytaxt səmasında nümunəvi uçuşları davam etdirdilər.

Təlim-döyüş təyyarəsi uçuş heyətinin səriştələrinin artırılması və idarəolunmayan raket və bombalarla döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün təyin edilən "L-39", yaxın və orta məsafələrdə hava döyüşlərinin aparılması üçün nəzərdə tutulan "MiQ-29", təyyarələrə, yerüstü hədəflərə idarəolunmayan raket, müxtəlif növ bombalar və 30 millimetrlik



top ilə həmlə imkanına malik "Su-25" təyyarələri müxtəlif düzülüşlərdə hərəkət edərək yüksək pilotaj fiqurları nümayiş etdirdilər.

Məhz bu paradda hərbi aviasiya tarixində ilk dəfə Azərbaycan şahinləri "SU-25" hücum təyyarələri ilə yüksək pilotaj məharəti göstərdilər. Onlar paytaxt səmasında üçrəngli bayrağımızın möhtəşəm əksini yaratdılar.

Azərbaycanın Hərbi Hava Qüvvələri hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malikdir. Qırıcı-bombardmançı aviasiya bütün hündürlüklərdə hava hədəflərini məhv etmək, yerləşdiyi məkandan asılı olmayaraq yerüstü obyektlərə və hədəflərə zərbələr endirmək iqtidarındadır. Hücum və döyüş helikopterləri tam qüvvələri ilə Quru Qoşunlarına aviasiya dəstəyi göstərmək və bütün cəbhə boyu düşmənə fasiləsiz zərbə vurmaq gücündədir. Nəqliyyat aviasiyası desant və kəşfiyyat qruplarının düşmənin arxa cəbhəsinə çıxarılması və ehtiyatların təmin edilməsi istiqamətində tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin döyüş təyyarələrinin və helikopterlərinin Bakı səmasında uçuşu xalqımızda düşmən üzərində qəti qələbəyə sarsılmaz inamı daha da möhkəmləndirdi.

1997-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin ilk buraxılış mərasimində ulu öndərimiz Heydər Əliyev demişdi: "Çox sevinirəm ki, indi milli şahinlərimiz var. Sevinirəm ki, bizim şahinlərimiz Azərbaycan səmasını daim qorumağa, Azərbaycan ərazisini qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər".

Paraddan sonra Prezident İlham Əliyev Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə dövlətimizin başçısının iyunun 25-də imzaladığı Sərəncamla 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuş general-polkovnik Zakir Həsənova, general-polkovnik Nəcməddin Sadıkova və general-leytenant Kərəm Mustafayevə həmin ordenləri təqdim etdi.

Sonda xatirə şəkilləri çəkdirildi.

* * *

Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm hərbi parad başa çatandan sonra qardaş Türkiyənin "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan 2 ədəd "F-16" və 8 ədəd "F-5" tipli təyyarə də Bakı buxtası üzərində nümunəvi uçuşlar keçirdi.

Beləliklə, bu parad bir daha göstərdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. Millətimizin ləyaqət rəmzi, özünütəsdiq imkanı olan ordumuz xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir və bütün bu ali ideyaları yalnız bir milli dəyər birləşdirir - Müstəqillik!

1918 **Azərbaycan Ordusu - 100** 2018

# Prezident İlham Əliyev Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisini və Müdafiə nazirini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akarı və Türkiyənin Müdafiə naziri Nurettin Caniklini qəbul edib.*



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Türkiyədə keçirilən seçkilər nəticəsində Rəcəb Tayyib Ərdoğanın qələbəsi ilə bağlı təbriklərini çatdıraraq qeyd etdi ki, bu, Türkiyə Prezidentinin rəhbərliyi ilə son illər görülmüş işlərə xalqın verdiyi yüksək qiymətin təzahürüdür. Dövlətimizin başçısı Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akarın, Müdafiə naziri Nurettin Caniklinin və qardaş Türkiyə hərbçilərinin Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olunmuş paradda iştirakından məmnunluğunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən müdafiə sahəsində bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akar və Müdafiə naziri Nurettin Canikli Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdılar.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və Müdafiə naziri Azərbaycanda keçirilən prezident seçkilərində dövlətimizin başçısını qazandığı qələbə münasibətilə təbrik etdi və Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olunmuş paradda iştirak etmələrindən şərəf hissi duyduqlarını bildirdilər.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

## BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycanın təşəbbüsü, 126 dövlətin dəstəyi ilə Birgə Bəyanat səsləndirilib

BMT-nin İnsan Hüquqları Şurasının bu günlərdə davam edən 38-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü, BMT-yə üzv olan 126 dövlətin, o cümlədən Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının bütün üzvlərinin həmmüəllifliyi ilə Birgə Bəyanat səsləndirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bəyanat BMT-nin İnsan Hüquqları Şurası üzvlərinin üçdə ikisi tərəfindən dəstəklənib.

Bəyanatda silahlı münaqişə qurbanlarına xüsusi yer ayrılır və təyin olunacaq yeni Ali Komissar silahlı münaqişələr nəticəsində yurd-yuvalarından didərgin düşmüş şəxslərin pozulmuş hüquqlarına xüsusi diqqət yetirməyə çağırılır. Təyin olunacaq Ali Komissardan öz fəaliyyəti müddətində BMT Nizamnaməsini rəhbər tutmağa və BMT-ə üzv dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşmağa dair gözlənti ifadə olunur.

# Silahlı Qüvvələr Günü münasibətilə təntənəli mərasim keçirilib



*Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü münasibəti ilə "Gülüstan" sarayında təntənəli mərasim keçirilib.*

Mərasim açıq elan edildikdən sonra ümummilli liderimiz Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranlarının iştirakı ilə keçirilən tədbirdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov nitq ilə çıxış edib.

Qonaqları salamlayan Müdafiə naziri bildirib:

"Bildiyiniz kimi, bu gün xalqımız Azərbaycan Ordusunun yaradılmasının 100-cü ildönümünü qeyd edir.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qeyd edildiyi kimi, Azərbaycan Ordusu 1918-ci ildə yaradılmış Cümhuriyyət Ordusunun varisidir. 1918-ci il iyunun 26-da Müsəlman Korpusunun bazasında Əlahiddə Azərbaycan Korpusunun təşkilinə başlanmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yaradıldığı gün - 26 iyun tarixi "Azərbaycan Ordusu" günü kimi elan edilmişdir.

O tarixdən bu günədək Azərbaycan Ordusu parlaq inkişaf yolu keçmişdir. 1918-ci ildə dost və qardaş Türkiyədən gələn hərbi qüvvələr və Əlahiddə Azərbaycan Korpusunun bölmələrindən ibarət olan Qafqaz İslam Ordusunun Azərbaycan torpaqlarını, xüsusilə Bakını işğaldan azad etməsi şanlı tariximizə qızıl hərflərlə həkk olunmuşdur. O cümlədən, 1920-ci ildə Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünə qarşı yönəlmiş erməni təcavüzünün qarşısının alınmasında böyük nailiyyətlər əldə etmişdir.

1991-ci ildə, xalqımız ikinci dəfə müstəqillik əldə etdikdən sonra Azərbaycan Milli Ordusu yaradılmış və ordu quruculuğu sahəsində mühüm addımlar atılmışdır.

Azərbaycanda müasir ordu quruculuğunun əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Qısa müddət ərzində ordumuz qarşısına qoyulan hər bir vəzifəni yerinə yetirməyə qadir hərbi qüvvəyə çevrilmişdir. Bu gün Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə dünya ordularının sırasında öz layiqli yerini tutmuşdur. Ali Baş Komandanın qeyd etdiyi kimi, ordu quruculuğu dövlətimiz üçün ən başlıca məsələdir.

Azərbaycan Ordusunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətlərindəndir.

Hörmətli mərasim iştirakçıları!

Ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış torpaqları Ermənistan Respublikası tərəfindən işğal edilmişdir. Dünya birliyi və bütün beynəlxalq təşkilatlar ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir, eləcə də Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Ancaq Ermənistan beynəlxalq hüquq normalarına məhəl qoymur və işğala davam edir.

Xalqımız, dövlətimiz və onun Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən ordumuza və onun şəxsi heyətinə göstərilən diqqət və qayğı bir ali məqsədə xidmət edir: torpaqlarımızı erməni işğalçılarından azad edərək, respublikamızın ərazi bütövlüyünü bərpa etmək, regionda sülh və əmin-amanlığın bərqərar olmasına ciddi töhfə vermək.



Hörmətli tədbir iştirakçıları!

Nəzərinizə çatdırmaq istərdim ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi bir çox dövlətlərlə, həmçinin beynəlxalq təşkilatlarla əməkdaşlığını ildən-ilə inkişaf etdirir.

Bu gün dövlətimizin qarşısında ciddi təhlükəsizlik məsələlərinin olmasına baxmayaraq, Azərbaycan Ordusu sülhməramlı əməliyyatlarda iştirak edərək beynəlxalq sülh və təhlükəsizliyə ciddi töhfə verməkdədir.

Hörmətli tədbir iştirakçıları!

Çıxışımın sonunda, dəvətimizi qəbul edib, belə bir tarixi gündə sevincimizə şərik olduğunuz üçün sizlərə dərin minnətdarlığımı bildirir, bütün dost və qardaş ölkələrə sülh və əmin-amanlıq arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm!"

Sonra bayram münasibətilə hərbi paradda iştirak edən xarici dövlətlərin yüksək vəzifəli şəxslərinin "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmələri haqqında Müdafiə nazirinin əmri oxunub.

Tədbir xalq mahnıları, Azərbaycan və xarici bəstəkarların əsərlərinin ifa olunduğu geniş bayram konserti ilə yekunlaşıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

1918 Azərbaycan Ordusu - 100 2018

# Günnüt zəfəri



*2018-ci ilin may ayı ərzində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçib. Beləliklə də, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələnib, qarşıya qoyulan məqsədə nail olunub.*



Müdafiə qüdrəti durmadan artan Naxçıvan Muxtar Respublikasında yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, böyük əhəmiyyətə malik layihələr icra olunur. Təlimlərdə tər tökərək daha da bərkiyən hərbi qulluqçularımız ötən il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi paradda böyük iftixarla iştirak edərək xalqımıza qürur, düşmənlərimizə qorxu hissi yaşatdılar. 1992-ci ildən sonra 25 il ərzində daha da güclənən ordumuzun hərbi paradı Azərbaycan Ordusunun muxtar respublikadakı ordu, birləşmə və hərbi hissələrinin güc və qüdrətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində yaradılan şəraitlə, silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olması və yeni hərbi xəstəxananın açılışında iştirak etməsi dövlət qayğısını hər zaman üzərlərində hiss edən hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradıb. Ordu quruculuğu ilə bağlı görülən işləri yüksək qiymətləndirən Ali Baş Komandan Naxçıvan ictimaiyyətinin nümayəndələri ilə görüşdə deyib: "İlk növbədə, Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, yaradırsınız. Əlbəttə ki, Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Biz bunu belə də qəbul edirik. Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar, texnika ilə təchiz edilmişdir. Biz son illər ərzində Azərbaycan Ordusunu yüksək dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın, demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir... Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni, təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir."

Ali Baş Komandanın bu açıqlamasından ciddi narahatçılıq keçirən işğalçı Ermənistan az sonra Əlahiddə Ümumqoşun Ordunun Qarsda keçirilən Türkiyə-Azərbaycan birgə döyüş atışlı taktiki təlimlərini məyusluqla izlədi və dərhal da Şərur-Sədərək istiqamətində növbəti təxribata əl atdı. Cavab isə qəti və çox sərt oldu...

Dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verməsidir. Həyata keçirilən əməliyyat nəticəsində paytaxt İrəvanı Ermənistanın cənubu və eləcə də işğal altındakı Qarabağ ərazisi ilə birləşdirən əsas magistral yolun mühüm bir hissəsinin Əlahiddə Ümumqoşun Ordu bölmələrinin bir neçə istiqamətdə tam vizual nəzarəti altına keçməsi mühüm hərbi üstünlük deməkdir.

Ərazinin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi və təminattəxliyə məqsədi ilə 50 kilometrdən artıq yeni yol çəkilib, 60 kilometrdən artıq yararsız yollar isə bərpa edilib. Bölmələrimizin təhlükəsiz hərəkətini və fəaliyyətini təmin etmək məqsədi ilə göstərilən rayonlarda mina-axtarış işləri aparılıb, 1600-dən çox müxtəlif növ minalar aşkar edilərək zərərsizləşdirilib. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün ətrafdakı hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub. Yeni mövqelərin dayanıqlığının artırılması üzrə mühəndis işləri davam etdirilir.

Naxçıvan Muxtar Respublikasında dövlət-ordu-xalq birliyinin möhkəm təməli yaradılıb. Dövlətin və xalqın dəstəyini üzərində hiss edən şəxsi heyətin döyüş ruhu günbəgün artır, sərhəd yaşayış məntəqələrimiz etibarlı müdafiə olunur. Yeni müdafiə mövqelərinə yerli sakinlər, ictimaiyyət nümayəndələri, mədəniyyət kollektivləri tez-tez baş çəkir, şəxsi heyətlə birlikdə tədbirlərdə iştirak edirlər. Hətta qəlbləri Vətən eşqi ilə döyünən vətəndaşlarımız bölmələrə yeni yolların çəkilişində yaxından iştirak edir, bu birliyi görən düşmən qüvvələri yollarda işləyən mülki texnikalara belə atəş açırlar. Özünün həyatı və



texnikasının sıradan çıxarılması bahasına könüllü surətdə vətəndaşlıq borcunu yerinə yetirən insanlarımızın sayəsində mövqelərə yeni yollar çəkildi. Bütün bunlara baxmayaraq məqsədlərinə nail ola bilməyən düşmən qüvvələri bizdəki birliyi və qorxmazlığı həzm edə bilmirlər. Azərbaycan əsgəri isə düşmənin təxribatlarına cavab olaraq nəzarətindəki ermənilərə məxsus buğda sahələrini yandırmaq imkanına sahib olsa da, bunu etmir. Çünki, qarşı tərəfdən fərqli olaraq, bizim əsgərlərimiz baxmayaraq ki, o nemətlə düşmən qidalanacaq, çörəyə hörmət əlaməti olaraq taxıl zəmilərini yandırmır. Düşmən isə əksinə olaraq təxribatlarından əl çəkmir və layiqli cavabını da alır.

Bir məqamı da qeyd edək ki, düşmən əsgərlərinin 26 il ərzində "yaşayışı üçün" yaradılmış şəraitə nəzər salsaq, necə acınacaqlı vəziyyətdə xidmət etdiklərini, aclıq, səfalət, qeyri-insani sosial şəraitdə yaşayan Ermənistan ordusunun Azərbaycan Ordusu ilə müqayisəyə gəlməyəcək dərəcədə geridə qaldığını aydın şəkildə görə bilərik. Erməni işğalından azad edilmiş yeni mövqelərdə qısa müddət ərzində hərbi qulluqçularımız üçün yaradılmış şərait düşmənlərimizə göz dağıdır. Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən bütün mövqelərində şəxsi heyət üçün nümunəvi xidmət şəraiti yaradılıb. Bütün bunlar da onu deməyə əsas verir ki, düşmən ordusundan fərqli olaraq bizim ordumuz hərtərəfli təminata, ən müasir silah-sursata və yenilməz, qətiyyətli, peşəkar şəxsi heyətə malikdir.

Qısa zamanda dayaq məntəqələrinin bir neçə kilometrlərlə önə çəkilməsi, strateji yüksəkliklərin ələ keçirilməsi, logistik təminatın təşkili erməni tərəfi üçün gözlənilməz oldu. Düşmənin illərdir möhkəmlənmiş əraziləri tərk etməyə məcbur edilməsi bir tərəfdən onun döyüş imkanlarını məhdudlaşdırıb, digər tərəfdən isə ordu və cəmiyyətində mənəvi-pixoloji duruma mənfi təsir edib. Ermənistanın rəsmi dairələri ölkədəki təşvişi azaltmaq məqsədilə Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatlarını ictimaiyyətdən gizlətməyə çalışsalar da, Günnüt əməliyyatı bütün Ermənistanı çaxnaşmaya salıb. Son hadisələrin belə ajiotaj yaratmasının səbəbi ermənilərin bir səhər ayılıb başlarının üzərində Azərbaycan əsgərini görməsidir. Bir neçə gün əvvəl Areni kəndindən "razm.info armenia" portalının hazırladığı videoreportajda Azərbaycan Ordusunun irəliləməsindən və kəndin yaxınlığındakı postlarda mövqe tutmasından ciddi narahat olan kənd əhalisi Ermənistan müdafiə nazirliyinin onları aldatdığını və ordunun əraziləri qorumaq iqtidarında olmadığını bildiriblər.

Ermənistan hökumətinin adını dəyişərək Tiqranaşen qoyduğu Kərki kəndi, Günnüt, Qaraqaya, Daşxırman, Ağbulaq, Danzik, Arpa, Çivə, Ərpi, Keşikkənd, Başkənd, Ortakənd və digər qədim Azərbaycan kəndləri, hər biri ağrılı-acılı bir tarix yaşadır özündə, sonu qələbə olacaq bir tarixi isə bu gün Azərbaycan əsgəri yazır. Qarış-qarış, addım-addım, kəndbəkənd, düşməni dövlət sərhədinə çəkilməyə məcbur edir. Gün gələcək ki, Lələtəpə, Cocuq Mərcanlı, Günnüt, Qızılqaya zəfərinin sədaları bütün qədim Azərbaycan torpaqlarında, Azərbaycan əsgərinin addım səslərini eşitmək həsrətində olan yurd yerlərimizdə gələcək, işğal altındakı torpaqlarımız tezliklə öz əzəli sahiblərinə qaytarılacaq. Erməni daşnakları bilməlidir ki, bir qarış torpağımızın onların əlində qalmasına yol verilməyəcək. Azad olunmuş kənd və ərazilər işğal olunmuş torpaqlarımızın bir hissəsidir. Biz Kərkini, onun ətrafındakı əraziləri də işğaldan azad edəcəyik. Vedi, Qəmərli və onlarla kəndlərimiz erməni işğalı altındadır. Bu ərazilərə ermənilər sonradan köçürülüb. İnanırıq ki, tarixi torpaqlarımız geri qaytarılacaq və tarixi ədalət bərpa olunacaq.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün hər bir vətəndaşımız rahat, sabitlik şəraitində yaşayır, Azərbaycan əsgərinə güvənərək öz gündəlik fəaliyyəti ilə məşğul olur. Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti qədim hərb ənənələrinə və mübarizə tarixinə malik olan Naxçıvanımızın müdafiəsində cəsarətlə dayanır, ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq müstəqilliyimizin qorunmasında və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında öz vəzifələrini şərəflə yerinə yetirir. Deməli, nə bu gün, nə də gələcəkdə heç bir düşmən əli bu torpaqlara uzana bilməz.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

1918 Azərbaycan Ordusu - 100 2018

# Hərbi Tibb Fakültəsi məzunlarının buraxılışı

*Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsi məzunlarının buraxılış mərasimi keçirildi.*



Mərasimdə Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin nümayəndələri, Hərbi Tibb Fakültəsinin zabitləri, müəllimləri və kursantları iştirak edirdilər.

Tədbirdə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri Hərbi Tibb Fakültəsinin rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov açaraq bildirdi ki, ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin ordu quruculuğuna verdiyi töhfələrdən biri də onun yaratdığı Hərbi Tibb Fakültəsidir. "Bu gün Hərbi Tibb Fakültəsində əlamətdar gündür. Bir qrup hərbi həkim və hərbi feldşer təhsilini müvəffəqiyyətlə başa vuraraq hərbi qulluqçuların sağlamlıqlarının keşiyində dayanmaq üçün hərbi hissələrə göndərilirlər".

Fakültə rəisi bu gün peşəkar hərbçi həyatına qədəm qoyan məzunları təbrik etdi, eyni zamanda əsgər və zabitlərimizin, onların ailə üzvlərinin sağlamlığı keşiyində mətin durmağı, müqəddəs Hərbi anda və Hippokrat andına həmişə sadiq qalmağı arzuladı. Onlara yaradılan şəraitə görə Müdafiə Nazirliyinin rəhbərliyinə Hərbi Tibb Fakültəsinin kollektivi və kursantları adından minnətdarlığını bildirdi.

Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov qeyd etdi ki, Ulu Öndərin ordu quruculuğu ilə bağlı başladığı işləri, onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev layiqincə həyata keçirir. "Ali Baş Komandanın diqqət və qayğısı nəticəsində hər bir sahədə olduğu kimi, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, hərbi təhsilin inkişafının günün tələblərinə cavab verməsi və hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülməkdədir. Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün müasir tibb elminin tələblərinə cavab verən hərbi həkim kadrlarının hazırlanması da ölkəmizin müdafiə qüdrətinin artırılmasına xidmət edən mühüm amillərdəndir...".

Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi bildirdi ki, Silahlı Qüvvələrimizin yüksək səviyyəli döyüş hazırlığının formalaşmasında hərbi həkimlərimizin hər zaman müstəsna xidmətləri olmuşdur. "Bunun üçün siz hərbi qulluqçulara zəruri tibbi yardım göstərərkən bilik, bacarıq və təcrübənizdən məharətlə istifadə etməli, bununla da onların sağlamlığı keşiyində dayanaraq ordumuza yeni nəfəs, yeni ruh və döyüş əzmi gətirməlisiniz. Xidmətinizlə Vətənə, xalqa və dövlətimizə sadiq olduğunuzu bir daha nümayiş etdirməlisiniz".

General-leytenant Nizam Osmanov kursantları tibb xidməti leytenantı, hərbi zabit rütbəsi və diplom almaları münasibətilə təbrik etdi, Azərbaycanın gələcəyi, ordumuzun, dövlətçiliyimizin müdafiə qüdrətinin daha da artırılması naminə xidmətlərində uğurlar arzuladı.

Tədbirin sonunda təhsildə fərqləndiyinə görə tibb xidməti leytenantları Fəxri Əmrahlı və Əyanət Mustafayev, gizir Murad Bayramov fəxri fərman və qiymətli hədiyyələrlə təltif olundular.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Buraxılış gününün xoş anları



Cəmşid Naxçıvanski adına Hərbi Liseydə 2017-2018-ci tədris ilinin başa çatması münasibəti ilə mərasim keçirildi. Mərasim açıq elan edildikdən sonra Hərbi liseyin döyüş bayrağı təntənəli surətdə zala gətirildi. Tədbirdə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan oğullarımızın ruhu bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni ifa edildi.

C.Naxçıvanski adına Hərbi Liseyin rəisi vəzifəsini icra edən polkovnik Qadir Vəlişov mərasim iştirakçılarını salamladı, məzunların valideynlərinə gözaydınlığı verdi, hamını bu əlamətdar gün münasibəti ilə təbrik edib uğurlar arzuladı.

Polkovnik Q.Vəlişov bildirdi ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Silahlı Qüvvələrimiz üçün zabit kadrlarını hazırlanmasında əvəzsiz xidmətləri var və buna görə də təhsil ocağına böyük önəm verilir: "15 il bundan əvvəl - 2003-cü ilin aprelində Hərbi liseyin 30 illik yubileyi xüsusi fərmanla ölkə səviyyəsində böyük təntənə ilə qeyd olundu.

Yubiley mərasimində Ulu Öndər Hərbi lisey haqqında xoş sözlər söylədi: "Sizə səmimi deyirəm, Cəmşid Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona, bax, bu cür baxacağam."

Biz, təhsil ocağının şəxsi heyəti daim Ümummilli Liderimizi minnətdarlıq hissi ilə xatırlayırıq. Bu gün həm Azərbaycan Ordusunun, həm də Hərbi liseyin şəxsi heyəti ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısını öz üzərimizdə hiss edirik.

Polkovnik Qadir Vəlişov çıxışında təhsil ocağının maddi-texniki bazasının gündən-günə təkmilləşməsindən və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə məktəb məzunlarının göstərdiyi igidliklərdən də söz açdı: "Hərbi liseydə təlim və tədris prosesi daim təkmilləşir. Bunun da nəticəsində kursantların bilik səviyyəsi və təcrübəsi artır. Hərbi liseyin maddi-texniki tədris bazası müasir tələblərə cavab verir. Təhsil ocağında Azərbaycan Ordusunda xidmət edəcək peşəkar, vətənpərvər kadrların hazırlanması üçün hər cür şərait yaradılıb. Biz bu şəraitdən səmərəli və bacarıqla istifadə edərək Hərbi liseydə təhsil sisteminin təkmilləşdirməsini davam etdirəcək, yeni uğurlar qazanacağıq. Hərbi təhsil sisteminin daim inkişaf etdirilməsi ordumuzun yüksək ixtisaslı zabit kadrları ilə təmin olunmasının qarantıdır.

Azərbaycan Respublikasına şərəflə xidmət edən məzunlarımız Vətən torpağı üçün canlarını belə əsirgəməmişlər. Onlardan 10 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüş, yüzlərlə məzunumuz isə müxtəlif orden və medallarla təltif olunmuşdu. 2016-cı ilin aprel döyüşləri zamanı erməni işğalçılarına qarşı vuruşan hərbçilərimizin sırasında liseyimizin məzunları olmuş zabitlər də böyük hünər göstərmişlər. Dövlət başçısı aprel döyüşləri zamanı göstərdikləri igidliklərə görə hərbi qulluqçuları yüksək qiymətləndirmişdir. Onlardan polkovnik Şükür Həmidov və polkovnik-leytenant Murad Mirzəyevə Azərbaycanın Milli Qəhrəmanı, polkovnik Mayis Bərxudarova isə general-mayor ali hərbi rütbəsi vermişdir. İnanıram ki, sizin də sıralarınızdan zabitlər, generallar və admirallar çıxacaq. Hərbi liseyin pedaqoji kollektivinin çəkdiyi zəhmət hədər getməyəcək."

Çıxışının sonunda polkovnik Qadir Vəlişov bir daha kursantlara müraciət edərək dedi: "Əziz məzunlar! Artıq Hərbi liseydəki təhsil illəriniz ötüb arxada qaldı. Bilirəm ki, doğma liseydən ayrılmaq sizin üçün çox çətindir. Elə bizim üçün də sizdən ayrılmaq asan deyil. Valideyn doğma övladından ayrılarkən hansı hissləri keçirirsə, biz də bu gün həmin duyğuları yaşayırıq. Tarixə qovuşmuş ötən illər ərzində Hərbi liseyin zabit və müəllim heyətinin sizin Vətənə layiqli övlad kimi yetişmənizdə xidmətləri danılmazdır. Arzu edirəm ki, Ali Hərbi məktəblərdə təhsilinizi davam etdirib, zabit kimi ordumuzun sıralarında layiq olduğunuz vəzifələri və yerləri tutasınız. Biz sizə böyük ümidlər bəsləyirik. Əminik ki, siz bəslənən etimadı doğruldacaq, şanlı tarixi ənənələrə malik Hərbi liseyimizin adını daha da yüksək zirvələrə qaldıracaq, başımızı hər yerdə uca edəcəksiniz".

Sonra Hərbi liseyin Azərbaycan dili və ədəbiyyatı müəllimi Sahib Əsədov kursantları məzun günü münasibəti ilə təbrik etdi, arzu və istəklərini bildirdi. Kursantlar adından çıxış edən Anar Sadıqov hər zaman komandanlığın onlara göstərdikləri etimadı layiqincə doğruldacaqlarına söz verdi.

Çıxışlar yekunlaşan kimi kursantlara C.Naxçıvanski adına Hərbi Liseyin məzun kitabı təqdim olundu. Yaş kötüyünə rəmzi nişanı kursant Elmar Əhmədli vurdu.

Tədbir iştirakçıları Cəmşid Naxçıvanski adına Hərbi Liseyin bayrağının təhvil-təslim anlarını da maraqla izlədilər. 3-cü kursun kursantı bayrağı təntənəli surətdə 1-ci kursun kursantına təhvil verdi. Bayrağı təhvil alan kursant bayrağı göz bəbəkləri kimi qoruyacaqlarına and içdi.



Mərasim iştirakçıları qürurverici anlar yaşadılar. Kursun başa çatdığını bildirən son zəngin sədaları zalı doldurdu.

Məzunlardan Nəsir Nəbiyev, Elçin Əsgərli, Tarıyel Hüseynov və başqaları ilə görüşüb söhbət etdim. Onlar təhsillərini başa vurduqlarına görə sevinc hissləri keçirdiklərini və həyatlarının ən xoş anlarını yaşadıqlarını söylədilər. Gələcəyin zabitləri olacaq kursantlar Ali Hərbi məktəblərdə hərbi sirlərə və döyüş vərdişlərinə daha da dərindən yiyələnəcəklərini bildirdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

1918 Azərbaycan Ordusu - 100 2018

# Əlahiddə Ümumqoşun Orduda növbəti komanda-qərargah təlimi uğurla başa çatıb

*2018-ci ilin hazırlıq planına uyğun olaraq, Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Orduda iyunun 18-dən iyunun 24-dək davam edən komanda-qərargah təlimi uğurla başa çatıb, qarşıya qoyulmuş məqsədlərə nail olunub.*



Komanda-qərargah təlimində qərargahlar tərəfindən əməliyyatların planlaşdırılması, praktiki fəaliyyətlərə cəlb edilmiş bölmələr tərəfindən döyüş atışlarının icrası və qəbul olunmuş qərarların Simulyasiya Mərkəzində kompüterlər üzərində oynanılması məşq etdirilib.

Təlim komandirlərin və qərargah zabitlərinin döyüşün təşkili və aparılması zamanı yaranmış müxtəlif şəraitlərdə bölmələrin fasiləsiz idarə olunması üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədi daşıyıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Silahlı Qüvvələrin 100 illik yubileyi münasibətilə Bakıda hərbi mahnılardan ibarət konsert oldu

Dənizkənarı Milli Parkda qələbəlikdi. Sərin yay axşamında göy Xəzərin qoynunda dincəlməyə çıxan və konserti maraqla izləyən bir neçə şəhər sakini ilə söhbət aparırıq.

Validə Məlikova 9 yaşlı qızı ilə Xaçmaz rayonundan hərbi paradı izləmək üçün şəhərə gəldiyini deyir: "İbtidai sinif müəllimiyəm. Azərbaycanımızın müstəqilliyi və ordumuzun gücü ilə fəxr edirəm. Oxunan hər bir mahnı qəlbimizdəki Vətən, torpaq sevgisini daha da coşdurur. Ümumiyyətlə, doğma Azərbaycanımıza, yurda, elə, obaya bəstələnən mahnılar hər bir vətənpərvər insanın qəlbinə tez yol tapır. Bu gün uşaqlar ən kiçik yaşlarından Vətənə, orduya, bayrağa sevgi ilə tərbiyə olunur, böyüyürlər. Onlar Azərbaycanın gələcəyidirlər."

Əslən Füzuli rayonundan olan Gülbəniz Qəmbərova Vətən, torpaq həsrətlisi olduğunu söylədi: "Şəhid bacısıyam. Qardaşım 1994-cü ildə Horadiz uğrunda gedən döyüşlərdə şəhid olub. Həmin vaxtlarda silah, texnika yox idi. Şükürlər olsun, bu gün ordumuz dünyada ən güclü ordulardan biridir. İki il bundan öncə aprel döyüşlərində ordumuz öz gücünü düşmənə göstərdi. Həqiqətən, ordumuz qürur yerimizdir. Qonaqların, şəhər sakinlərinin daha çox istirahət yeri olan Dənizkənarı Milli Parkda ordumuzun 100 illiyi ilə bağlı belə vətənpərvər mahnıların ifa edilməsi hər kəsin ürəyincədir. Çox sevinirik. Azərbaycanımızın paytaxtı Bakı şəhərində ordumuzun gücünü nümayiş etdirən möhtəşəm parad keçirildi. Paradı böyük sevinc qürur hissiylə izlədim"

Fərrux Həsənov vaxtilə ön xətdə hərbi xidmət keçdiyini, hazırda tanınmış neft şirkətlərindən birində çalışdığını dedi: "Hər bir Azərbaycan vətəndaşı ordusuna güvənir, ona arxalanır, onu sevir və onunla fəxr edir. Böyük şairimiz Zəlimxan Yaqub yaxşı deyib: "Ordun varsa, yurdun var". Bu ordunun da şanlı tarixini bilmək vacibdir. Təşkil olunan səyyar sərgiyə baxdım. Ordumuzun Cümhuriyyət dövründən müasir dövrədək olan geyim nümunələrindən ibarət foto-kolleksiya mənim üçün çox maraqlı idi. Ordumuzun 100 illiyi xoş təəssüratlarla yaddaşımda qalacaq. Hərbi parad təntənəli keçid qəlbimi titrətdi, qürurla doldurdu. Bu da bir tarixdir. Biz bu tarixi qürurla yaşadıq. Fəxrlə deyirəm ki, 100 yaşın mübarək, Azərbaycan Ordusu".

Sevda və Əfruz bacıdılar. Onlar səsləndirilən hər bir mahnını diqqətlə dinləyirdilər. Sevda xanım oğlunun Azərbaycan Ordusunda xidmət etdiyini və hər il 26 İyun Silahlı Qüvvələr Gününün evlərində ən əziz bir gün kimi qeyd edildiyini dedi. Onun oğlu 20 ildən artıqdır ki, ordumuzun zabitidir. Əfruz xanım isə yazdığı "Yenilməz Azərbaycan Ordusu", "Qarabağ yol gözləyir", "Şəhidlərə xatirə" şeirlərindən bir neçə misra söyləməkdən belə çəkinmədi.



Rasim Hacıyev həyat yoldaşı Flora xanımla istirahət üçün həmişə dəniz kənarına gəldiyini və bu dəfə istirahətlərinin daha maraqlı keçdiyini, hərbi vətənpərvərlik mahnılarını böyük həvəslə dinlədiklərini dedilər. İxtisasca mühəndis olan Rasim müəllim əslən Şuşadan, həkim işləyən Flora xanım isə Ağdamdandır. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Şuşa məscidinə bənzər məscidin inşası ilə əlaqədar 30 nəfər şuşalı ilə birlikdə oraya gedib, məscidin layihəsində müəyyən texniki tövsiyələrini verən Rasim müəllim yaxın qohumlarının Azərbaycan Ordusunda xidmət etdiyindən, əvvəlki illərlə müqayisədə ordumuzun bugünkü yüksək təminatından, ölkə Prezidenti İlham Əliyevin hərbiyə göstərdiyi diqqət və qayğısından danışdı.

Həmsöhbətlərim səsləndirilən mahnıların musiqi beşiyimiz olan Şuşanı onlara xatırlatdığını və qüdrətli ordumuzun gücü ilə tezliklə ata-baba ocaqlarına dönəcəklərini, bundan da möhtəşəm konsertlərin doğma Qarabağımızda keçiriləcəyinə əminliklərini bildirib, xalqımızı şanlı ordumuzun yaradılmasının 100 illiyi münasibətilə təbrik etdilər.

Hərbi paradı izləyən şəhərimizin qonaqları Türkiyə Respublikasının vətəndaşları Perihan Yalçın və Cəlal Yalçın, Təbrizdən Şöhrət xanım Azərbaycan xalqını Silahlı Qüvvələrin yaradılmasının 100 illiyi münasibətilə təbrik etdi, tezliklə işğal altında olan torpaqlarımızın azad edilməsini, ölkədə əmin-amanlığın, sülhün bərqərar olmasını arzuladılar.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusu genişmiqyaslı təlimlər keçirəcək

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, iyulun 2-dən 6-dək Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı təlimləri keçiriləcək.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərə 20.000 nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dən artıq müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 30-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunacaq.

Təlimlərdə döyüş əməliyyatlarının aparılmasının müasir təcrübəsi nəzərə alınmaqla qoşunlar müxtəlif növ qoşun əməliyyatlarının keçirilməsi, o cümlədən şərti düşmənə yüksək dəqiqlikli silah sistemlərinin etibarlı raket, artilleriya, bomba-hücum, eləcə də aviasiya və pilotsuz uçuş aparatları (PUA) ilə atəş zərbələrinin endirilməsi, həmçinin genişmiqyaslı hücum əməliyyatının keçirilməsi ilə işğal edilmiş ərazilərin azad edilməsi üzrə tapşırıqları yerinə yetirəcək.

Kəskin kəsişən ərazi və mürəkkəb dağlıq relyef, həmçinin radioelektron mübarizə şəraitində keçiriləcək təlimlərdə birləşmə və hərbi hissələrin qarşılıqlı fəaliyyəti, qoşunların və atəş vasitələrinin idarə olunması, eləcə də şərti düşmənin müxtəlif diversiya fəaliyyətlərinə qarşı taktiki epizodlar icra ediləcək.

Təlimlərdə Azərbaycan Ordusunun silahlanmasına yeni qəbul edilmiş ən müasir silah növlərinin və hərbi texnikanın tətbiqi ilə müxtəlif poliqonlarda döyüş atışlarının keçirilməsi nəzərdə tutulub.

# İsti hava şəraiti ilə əlaqədar Azərbaycan Ordusunda xüsusi rejim tətbiq olunub

Havanın hərarətinin kəskin surətdə yüksəlməsini nəzərə alaraq, şəxsi heyətin, xüsusilə də gənc əsgərlərin sağlamlığının qorunması, rahatlığı və normal istirahət şəraitinin təmin olunması məqsədilə Müdafiə nazirinin əmrinə əsasən xüsusi rejim tətbiq edilib.

Müdafiə Nazirliyindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, görülən tədbirlər nəticəsində əsgər yataqxanaları, yeməkxanalar, digər inzibati binalar və poliqonlardakı sinif otaqlarında müasir kondisionerlər quraşdırılıb, hərbi hissələr sərinləşdirici avadanlıq və vasitələrlə təchiz edilib.

İstilik və günvurmanın profilaktikası, şəxsi heyətin su təchizatının nizamlanması üzrə kompleks tədbirlər görülür. Döyüş hazırlığı məşğələləri səhər saat 11.00-dək və saat 17.00-dan sonra keçirilir, hərbi qulluqçulara günorta vaxtı istirahət verilir.

Hərbi hissələrin ərazilərində, döyüş mövqelərində və təlim yerlərində şəxsi heyətin birbaşa günəş şüasından qorunması üçün kölgəliklər və duş yerləri hazırlanıb. Bütün hərbi qulluqçular daim qablaşdırılmış içməli su ilə təmin olunur.

1918 Azərbaycan Ordusu - 100 2018

# Ordumuz qürurumuzdur

*Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən Əlahiddə Ümumqoşun Ordusu, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyi münasibətilə tədbirlər keçirilib.*



Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi münasibətilə Nəsimi rayon İcra Hakimiyyətinin rəhbərliyi və ictimaiyyət nümayəndələri Müdafiə Nazirliyinin Goranboy rayonundakı "N" hərbi hissəsində olub.

Tədbirdə çıxış edən Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi və 26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə əsgərlərimizi təbrik edib, onlara çətin və şərəfli xidmətlərinin yerinə yetirilməsində müvəffəqiyyətlər arzulayıb. Qeyd edilib ki, 100 il əvvəl müsəlman Şərqində ilk demokratik və parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması imperiya əsarətində ağır məşəqqətlərə məruz qalmış xalqımızın milli azadlıq mübarizəsinin nəticəsi, dərin tarixi kökləri olan milli dövlətçilik ənənələrimizin davamı idi. Qarşısına müstəqil, azad və demokratik respublika qurmaq kimi şərəfli vəzifə qoymuş Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə bütün dünyaya nümayiş etdirdi. Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, onun şüurlara aşılamış olduğu müstəqillik ideyaları xalqımızın yaddaşından heç vaxt silinmədi. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın gələcək müstəqilliyi üçün zəmin yaratdı.




1991-ci il 18 oktyabr tarixində dövlət müstəqilliyini elan edən xalqımız Cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək bu tarixi varislik üzərində öz dövlətini yaratdı. Müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələrin səbatsızlığı, səriştəsizliyi az qala bu müstəqilliyin də əldən getməsinə gətirib çıxaracaqdı. Ulu öndər Heydər Əliyevin qətiyyəti və uzaqgörən siyasəti nəticəsində müstəqilliyimiz qorundu, ölkəmizi gözləyən bütün təhlükələr dəf edildi, Azərbaycanın müstəqilliyinin möhkəm təməli qoyuldu. Bu gün Azərbaycanda gedən inkişaf prosesləri, dövlətimizin dünyada artan nüfuzu müstəqilliyimizin bəhrəsidir. Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi dövlətimizin başçısının tariximizə, dövlətçilik irsimizə olan böyük ehtiramının göstəricisidir.

Diqqətə çatdırılıb ki, iyunun 26-da yaranmasının 100 illiyi tamam olan Azərbaycan Silahlı Qüvvələri döyüş qabiliyyəti baxımından Cənubi Qafqazın ən güclü ordusudur. Son illər Azərbaycan Silahlı Qüvvələri hərbi potensialını artırıb, ən müasir silah-sursat, texnika ilə təmin olunub. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu strategiyasının Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün Azərbaycan Silahlı Qüvvələri regionun ən qüdrətli ordusuna çevrilib. Bu gün qətiyyətlə deyə bilərik ki, Azərbaycanın güclü, sarsılmaz ordusu var. Mənəvi-psixoloji hazırlıq cəhətdən də fərqlənən ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. 2016-cı ilin aprel döyüşlərində ordumuzun əkshücum əməliyyatı zamanı düşmənə sarsıdıcı zərbələri dediklərimizin bir daha təsdiqidir. Bu döyüşlər onu göstərdi ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü bərpa edəcək.

Sonra Nəsimi rayon İcra Hakimiyyətinin hədiyyələri və rayonun orta məktəb şagirdlərinin əsgərlərə ünvanladıqları məktublar şəxsi heyətə təqdim edilib, xidmətdə fərqlənən əsgər, çavuş və zabitlərin böyük bir qrupu Nəsimi rayon İcra Hakimiyyətinin xatirə hədiyyələri ilə mükafatlandırılıb.

Hərbi hissə komandanlığı şəxsi heyətin xidməti və döyüş hazırlığı barədə məlumat verib, hərbi hissə ilə Nəsimi rayonu arasında mövcud olan əlaqələrin daha da möhkəmləndirilməsi və Silahlı Qüvvələr Günü ərəfəsində tədbirin təşkilinə görə minnətdarlıqlarını bildirib, hərbi hissədə keçirilən bu tədbirin düşmənlə üz-üzə səngərdə xidmət edən hərbçilərin ruh yüksəkliyinin qalxmasında böyük rol oynadığını vurğulayıb.

Bayram tədbiri zamanı gənc əsgərlərin iştirakı ilə nümunəvi çıxışlar və fləşmoblar təqdim olunub. Sonra respublikamızın tanınmış incəsənət ustalarının iştirakı ilə döyüşçülərimiz üçün konsert proqramı təşkil olunub.

* * *

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə Müdafiə Nazirliyinin və Xocavənd rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Ordumuz - qürurumuz" adlı kütləvi hərbi vətənpərvərlik tədbiri keçirilib.

Xocavəndli məcburi köçkünlərin məskunlaşdıqları Beyləqan rayonu ərazisindəki Xocavənd qəsəbəsində keçirilən tədbirdə hərbi qulluqçular, Qarabağ müharibəsi veteranları, şəhid ailələri, ictimaiyyət nümayəndələri və gənclər Bayraq Meydanınadək yürüş ediblər. Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Xocavənd qəsəbəsindəki abidəsi önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsinə ehtiramlarını bildiriblər.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxış edərək Silahlı Qüvvələrin yaranmasının 100 illiyi münasibətilə tədbir iştirakçılarını, hərbi qulluqçuları təbrik edib, Azərbaycan Ordusunun yaranma tarixindən, ümummilli lider Heydər Əliyevin ordumuzun formalaşmasında və gücləndirilməsindəki xidmətlərindən danışıb. Bildirib ki, Azərbaycan Ordusu yarandığı 100 il müddətində keşməkeşli və şərəfli yol keçib. Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 26 iyun 1918-ci il tarixli qərarı ilə yaranan Silahlı Qüvvələr həmin dövrdə Dağlıq Qarabağda aparılan hərbi əməliyyatlarda düşməni ağır məğlubiyyətə uğradaraq ölkənin ərazi bütövlüyünün müdafiəsini təmin edib. Sovet Rusiyasının Azərbaycanı işğalından sonra Milli Ordunun ləğv edilməsinə baxmayaraq, xalqımız hərbi ənənələri qoruyub saxlayıb.



Böyük siyasi xadim Heydər Əliyevin ordu quruculuğunda əvəzsiz xidmətlərindən bəhs edən E.Hüseynov bildirib ki, Ulu Öndər 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbi yaratmaqla gənclərimizin bu istiqamətdə təhsil almalarını təmin etdi. “Ulu Öndərin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra pərakəndə hərbi dəstələrin əvəzinə vahid komandanlıqdan idarə olunan nizami ordu formalaşdırıldı. Ulu Öndərin ordu quruculuğu sahəsindəki siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri regionun ən qüdrətli ordusuna çevrilib. Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, işğal altında olan torpaqlarımızı azad etmək qüdrətində olduğunu bir daha göstərdi.”

General-mayor Mayis Bərxudarov Silahlı Qüvvələrə göstərilən diqqət və qayğı nəticəsində düşməni hər an məhv etməyə qadir olan güclü ordumuzun formalaşdığını bildirib. Vurğulayıb ki, Azərbaycan Ordusu torpaqlarımızın və xalqımızın müdafiəsində əzmlə dayanıb və işğal altındakı torpaqlarımızı Ali Baş Komandanın əmri ilə qısa vaxtda azad etməyə hazırdır.

Sonra cəbhə bölgəsində xidmət edən əsgər və zabitlərə, döyüşlərdə fərqlənən Qarabağ müharibəsi veteranlarına və 2016-cı il aprel döyüşlərinin iştirakçılarına fəxri fərman və hədiyyələr verilib.

Tədbirdə səhra mətbəxi nümayiş olunub, "Əsgərə məktub" layihəsi həyata keçirilib. İştirakçılar Silahlı Qüvvələrin əsgərlərinin Azərbaycan Ordusunun 100 illiyinə həsr etdikləri rəsmlərə maraqla baxıblar. Xüsusi təyinatlı hərbçilərin nümunəvi çıxışı alqışlarla qarşılanıb.

Xocavənd məktəblilərinin və Xalq artisti Azərinin ifasında təqdim olunan hərbi vətənpərvərlik mövzusunda mahnılar tamaşaçılarda yüksək əhval-ruhiyyə yaradıb, qələbəyə inam hissini daha da artırıb. Tədbir atəşfəşanlıqla başa çatıb.

**"Azərbaycan Ordusu"**

# "Türk Ulduzları" aviasiya qrupu Bakı buxtası üzərində nümunəvi uçuşlar keçiriblər



Türkiyə Hərbi Hava Qüvvələrinin "Türk Ulduzları" aviasiya qrupuna daxil olan 8 ədəd F-5 tipli təyyarələri Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən bayram tədbirlərində iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyunun 26-da hərbi paraddan sonra "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan 2 ədəd F-16 və 8 ədəd F-5 tipli təyyarələr Bakı buxtası üzərində nümunəvi uçuşlar keçiriblər.



# Qəhrəmanın xatirəsinə həsr olunmuş beynəlxalq turnir

*Bu günlərdə ölkəmizdə multikulturalizmin, tolerantlığın qorunması, gənclərimizdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi, Azərbaycanımızın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəmanlarımızın döyüş yolunun təbliği məqsədilə Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun xatirəsinə həsr olunmuş Qara dəniz və Xəzəryanı ölkələr arasında karate üzrə beynəlxalq turnirin açılış mərasimi keçirildi. Açılış mərasimi Dövlət himninin səsləndirilməsindən, ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən sonra başladı.*




Turnirin açılışında Gənclər və İdman Nazirliyinin şöbə müdiri Fərid Mansurov, Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov, Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Şuşa rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov və qəhrəmanın komandiri olmuş Hacı Əzimov çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrimizin 100 illik yubileyinin ölkədə təntənəli surətdə qeyd edilməsindən danışdılar, yarış iştirakçılarına uğurlar arzuladılar, belə beynəlxalq yarışların tezliklə Şuşada, Qarabağda keçiriləcəyinə əminliklərini vurğuladılar.

Yaşar Bəşirov məlumat üçün bildirdi ki, Milli Qəhrəman A.Aqarunovun xatirəsinə həsr olunmuş beynəlxalq turnirin bu il Azərbaycan Gənclər və İdman Nazirliyinin, Milli Karate Federasiyasının təqvim planına salınaraq hər il keçiriləcəyi nəzərdə tutulub.

Tədbirdə ilk dəfə səsləndirilən, qəhrəmanın xatirəsinə yazılan sözləri xalq şairi Nəriman Həsənzadəyə, ifası və bəstəsi Azərbaycan dövlət televiziyasının solisti Fuad Musayevə məxsus olan mahnı hər kəsə yüksək əhval-ruhiyyə, döyüş əzmi bəxş etdi. Mərasim respublikanın tanınmış sənət nümayəndələrinin ifa etdikləri marşlar və hərbi vətənpərvərlik ruhunda musiqi nömrələri ilə sona yetdi.

Müxtəlif yaş qrupları və çəki dərəcələri üzrə keçirilən beynəlxalq turnir Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi ərəfəsində 21-23 iyun tarixlərində "Sərhədçi" İdman Olimpiya Mərkəzində reallaşdı. Üç gün davam edən turnir Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi, Milli Karate Federasiyası, "Arpaçay" Karate Klubu, Azərbaycan Dağ Yəhudiləri Dini İcması və Albert Aqarunovun vaxtilə xidmət etdiyi Səbail tank taborunun veteranlarının birgə təşkilatçılığı ilə həyata keçirildi.

Turnirdə Rusiya, İran, Özbəkistan, Gürcüstan, İsrail və Azərbaycan idmançıları öz güclərini sınadılar. Beynəlxalq turnirdə 800-dən artıq karateçi iştirak etdi. Yarışda 90-na yaxın karate klubunun və cəmiyyətinin üzvləri təmsil olundu. Yarışın nəticəsinə əsasən, Azərbaycan birinci yerdə qərarlaşdı. İkinci yeri İran, üçüncü yeri isə Rusiya qazandı. Yarışın qaliblər qəhrəmanın xatirəsinə hazırlanmış medallar, kuboklar və diplomlar ilə mükafatlandırıldılar.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**29 iyun 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 79 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı və Bala Cəfərli kəndlərində, Berd rayonunun Movses və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Şuraabad, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycan və Ermənistan dövlət sərhədində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 28-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində növbəti monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Gennadi Petrika keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Saymon Tiller və Martin Şuster keçiriblər.

# "Ordumuzun Naxçıvan istiqamətində keçirdiyi əks-həmlə əməliyyatı Ermənistanı nokauta salıb"

*Naxçıvan istiqamətində ordumuzun həyata keçirdiyi əks-həmlə əməliyyatı Ermənistanı həqiqi mənada nokauta salıb. Ermənistan mətbuatının "Günnüt əməliyyatı"nı növbəti dəfə müzakirəyə çıxarması bunu bir daha sübut edir.*

Bunu Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun uğurlu əməliyyat keçirərək 11 min hektar ərazini düşməndən təmizləməsindən sonra Ermənistan media nümayəndələrinin bir qrupunun guya heç bir şey olmamış kimi cəbhənin həmin istiqamətinə səfər etməsi barədə məlumatla əlaqədar AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub: "Azərbaycan əsgərinin vurduğu tərs sillədən özünə gələ bilməyən və məğlubiyyəti həzm etmək iqtidarında olmayan Ermənistanın hərbi-siyasi rəhbərliyi xalqının qorxusundan dolayı yollar və müxtəlif uydurmalar hesabına özünə bəraət qazanmağa çalışır. Azərbaycan tərəfinin azad edilmiş ərazilərdən nümayiş etdirdiyi video-foto çəkilişlərə heç bir tutarlı faktla cavab verə bilməyən Ermənistanın məkanı bəlli olmayan, hansısa dağlıq ərazilərə "press-tur"lar təşkil etməkdən başqa çıxış yolu qalmır.

Azərbaycan əsgərinin Naxçıvanda azad etdiyi ərazilərə mülki əhalinin qayıtması, bu yerlərdə həyatın yenidən bərpa edilməsi artıq müzakirə olunmayan danılmaz faktdır".

AZƏRBAYCAN ORDUSU

1918 Azərbaycan Ordusu - 100 2018

# “Vətən əsgəri”



*Odlardan keçmisən, odlar oğlusan,*
*Qələbəm, zəfərim Vətən əsgəri!*
*Torpağa bağlısan, elə bağlısan*
*Ey nurlu səhərim, Vətən əsgəri!*

*Bu gün yüz yaşını bayram edirik,*
*Yüz yaşın mübarək, ey şanlı ordum!*
*Səninlə fəxr edir, sənə güvənir*
*Müstəqil dövlətim, müqəddəs yurdum.*

*Dənizdə, quruda, mavi göylərdə*
*Gecə də, gündüz də hər an oyaqsan.*
*Ali Baş Komandan əmrinə hazır,*
*Xalqıma hər zaman arxa-dayaqsan.*

*Yayıldı dünyaya, elə-obaya*
*Aprel döyüşünün səsi-sorağı.*
*İndi də Günnütə, Qızılqayaya*
*Sancılıb üçrəngli Zəfər bayrağım.*

*Sənə oxuyuram mən bu nəğməni*
*Ey əsgər qardaşım, uğurlar olsun!*
*Sevindir xalqımı xoş müjdələrlə,*
*Silah tutan əllər daim var olsun!*

*Dənizdə, quruda, mavi göylərdə*
*Gecə də, gündüz də hər an oyağıq.*
*Ali Baş Komandan əmrinə hazır,*
*Xalqıma hər zaman arxa-dayağıq!*

Şeir də, mahnı da istər ayrılıqda, istərsə də vəhdətdə dünyanın həssaslıqla dərkini asanlaşdırır. Bu baxımdan könlümüz şeiriyyətə, musiqiyə həmişə təşnədi; şeir oxunduqca, belə şeirlərə yazılan musiqi dinlənildikcə düşüncələri pillələşdirir, düşüncələrin, astronomiyada deyildiyi kimi, "əlavə yükünü" sıxışdırır. Bu, şeirin, musiqinin qüdrətidi...

Marş çağırışdı, haraydı.

Dövlətçiliklə bağlı olan haray, çağırış təkcə ürəkləri titrətmir, düşüncələri də tərpədir, duyumu da incələşdirir. İllərdi işğal olunmuş torpaqlarımızın kəsilməz harayını ürəyimizlə eşidirik. Onu da bildiririk ki, bu kəsilməz haray poetik sözlə ifadə olunanda, poetik sözün bədii dəyərinə yaraşan musiqiylə qoşa eşidiləndə daha təsirli olur.

Vətənpərvərlik mahnılarının hər birini marş səviyyəsində dinləyirik, dəyərləndiririk, səhər mehinin sığal çəkdiyi çiçəklərin ləçəklərində çırpınan şehi gözlərimizə necə köçürürüksə, onların mahiyyətini düşüncələrimizə elə köçürürük. Bu, şeirin, musiqinin duyğusallıq qüdrətidi. Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü, şair-publisist, polkovnik Abdulla Qurbaninin sözlərinə bəstəkar, Xalq artisti Faiq Sucəddinovun bəstələdiyi "Vətən əsgəri" marşını da belə dinlədim, dinlədik, belə yaşadıq, belə yaşadacağıq. Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş bu marşı bayramımıza poetik ricət bildik; dinləyəni duyğulandıran, duyğulananı düşündürən şeir, şeirin musiqi yozumu, musiqinin şeirdən rişələnən məfkurəliyi zaman, məkan sərhədinə sığmayacaq, şübhəsiz... Marş bayram günü olduqca həssaslıqla, olduqca sənətkarlıqla hazırlanmış kliplə ilk dəfə ictimailəşdirildi. Əməkdar artist istedadlı vokal ifaçısı, Akademik Opera və Balet Teatrının solisti Ramil Qasımovun ifasında.

Marşın bitkin ədəbi mətni ayrılıqda yüksək poetik dəyərə malikdir; beytlər, bütövlükdə şeir bədii-poetik yükü ilə səciyyəvidir. Hər beytdə Vətən var, torpaq var, torpağın çağırışı var, 100 yaşlı ordu var. Beytlər ayrılıqda, bəndlər vəhdətdə Vətənin çağırışı kimi dinlənilir.

Zəif şeir oxunur, unudulur...

Zəif musiqi dinlənilmir, zəif ifa dinləyənin ürəyinə yol tapa bilmir; Ramil Qasımov möhtəşəm marşı möhtəşəm ifa edir.

Yüksək poetik dəyərə malik şeirlər oxunur, yaşadılır. "Vətən əsgəri" şeiri kimi. Şeiri oxuyursan, marşı dinləyirsən, Cıdır düzünün, İsa bulağının, Ərgünəşin, Şüküratazın, Qırxqızın,... harayını, çağırışını eşidirsən. Sənə elə gəlir ki, bu haray çağırış zamanı dayandırmağa da qadirdi, göyü yerə ələməyə də, yeri göyə dikəltməyə də, şeirin (marşın) möhtəşəmliyi işğalda qalan torpaqlarımızın sızıltılarını, giziltilərini yumşaltmağa da; marş qəlbi daşları dikəldə bilər, qəlbi daşları əridə bilər.

Şeirdə Dədə Qorqudluq var; misralar, beytlər, bəndlər deyir ki, bu marş təkcə torpağın harayı, çağırışı deyil, min-min illik dövlətçilik tariximizin harayıdı: "Torpaqları azad edin!" - deyir bu könül sultanımız. "Səngərləri sərhədlərə köçürün! Əsən külək, çaxan şimşək, yağan yağış, daşan sel yolumuzu kəsə bilməz!".

"Torpağa, elə bağlı olanlara" - "Nurlu səhərimsən, Vətən əsgəri" müraciəti təkcə müəllifin müraciəti deyil, müəllifin timsalında Vətənin, torpağın müraciətidi. "Yayıldı dünyaya aprel zəfəri" misrası qürurun ifadəsidirsə, "Günnütdə, Qızılqayada bayrağımızın dalğalanması" ehtiramın ifadəsidi. Bu qürur, bu ehtiram Ramil Qasımovun ifasında o qədər duyğusallıqla səslənir ki!

Abdulla Qurbaninin 2016-cı ilin aprel döyüşlərinin iştirakçılarına həsr etdiyi "Lələtəpə fatehləri" və "Bayraqtəpə odası" arasında məzmun yaxınlığı var. "Vətən əsgəri" şeiri məzmun baxımından fərqlidi. Bu yaxınlıq, bu fərq zahiri yaxınlıqdı, zahiri fərqdi. Hər üç əsəri məfkurə eyniliyi birləşdirdiyindən, onları poetik trilogiya, şeiriyyət trilogiyası adlandırmaq olar: üç hissəli "Vətən sizi çağırır" trilogiyası. Bu üç əsəri eyni vaxtda dinlədim. Ürəyim telləndi. Mənə elə gəldi ki, Azərbaycan əsgərinin qələbə gülləsinin səsini eşitdim, bir də Vətənin "Mənim oğullarım!.." - nidasını. Bu nidanı yaxın vaxtlarda eşidəcəyik. Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda eşidəcəyik. Abdulla Qurbaninin sözlərinə bəstələnmiş "Vətən əsgəri" marşı həm də bu inamın marşıdı.

Abdulla Qurbaninin “Vətən əsgəri” marşı Azərbaycan Ordusunun yaxın vaxtlarda qazanacağı Böyük Qələbənin marşıdı!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 447
Nüsxə 3550